**Con Stüart Mill**

# AZADLIĞA DAİR

Tərcüməçi:
Nərmin Kamal

qanun nəşriyyatı

**John Stuart Mill**

# ON LIBERTY

Hakimiyyətin azadlığa münasibəti həmişə maraq doğurub. Kitab bu münasibət üçün normalar təklif edir, eyni zamanda, demokratik ideallların çoxluğun tiranlığına gətirə biləcəyi iddiasından da çəkinmir. Kitabda müəllif, daha çox, fərdi azadlığı önə çəkir. Fərdi azadlıq ilk növbədə insanın öz şəxsi fikir və düşüncələrini formalaşdırması, daha sonra bölüşmək, öz həyat yolunu seçmək, başqalarına zərər vermədən yaşamaq və digər insanlarla qaynayıb-qarışmaq hüququdur.

**John Stuart Mill** **ON LIBERTY**
**Con Stüart Mill** **AZADLIĞA DAİR**
Bakı, Qanun Nəşriyyatı, 2024, 232 səh.

Janr: esse
Yaş qrupu: 18+
Ölçü: 125x175 mm
Cild: yumşaq
Çapa imzalandı: 05.08.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Nər-min Kamal |
| Redaktor: | Cəlil Cavanşir |
| Korrektorlar: | Nəzrin Atabəyli Kaya, Bəsti Məmmədova |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-07-5

© Qanun Nəşriyyatı, 2024
Copyright © 1859 by John Stuart Mill

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

*"Bu səhifələrdəki bütün mülahizələri birləşdirən qayə ən zəngin müxtəliflikdə insan inkişafının mütləq və zəruri əhəmiyyəti prinsipidir".*

**"Hökumətin sahəsi və vəzifələri"**
**Vilhelm fon Humboldt**
**(1767–1835)**

## *İTHAF*

*Bu kitabı yazılarımdakı ən yaxşı şeylərin ilham mənbəyi və həmmüəllifi olmuş qadının, ali haqq və həqiqət duyğusu mənim üçün ən güclü motivasiya, təqdiri ən böyük mükafat olan dostumun və həyat yoldaşımın qəlbimi yandıran əziz xatirəsinə ithaf edirəm.*

*Uzun illər boyu yazdığım hər şey kimi bu kitab da mənim olduğu qədər onundur; lakin əsərim indiki halıyla natamamdır, çünki onun nəzərindən keçmək kimi bir dəyərə nail ola bilmədi; o, əsərin bəzi vacib hissələrini daha diqqətlə yenidən nəzərdən keçirmək üçün gələcəyə saxlamışdı, fəqət bu, mənə nəsib olmadı. Onunla birgə məzara getmiş böyük düşüncələrinin və nəcib hisslərinin yarısını dünyaya çatdıra bilsəm, insanlara bundan sonra həyat yoldaşımın rəqibsiz müdrikliyinin şövqündən və köməyindən məhrum şəkildə yaza biləcəyim hər hansı yazının faydasından daha böyük xeyir verməkdə vasitəçi olaram.*

# I FƏSİL

## Giriş

Bu tədqiqat fəlsəfi söhbətlərdə "zərurət" adı qoyulmuş təlimin əksi kimi başa düşülən "iradə azadlığı" məsələsindən yox, vətəndaş azadlığından, ictimai azadlıqdan bəhs edir və əsasən, cəmiyyətin fərd üzərindəki hakimiyyətinin təbiətini, sərhədlərini araşdırır. Azadlıq probleminin bu tərəfi haqda nəzəriyyədə nadir hallarda söz açılsa da, az qala heç ümumi müzakirəsi getməsə də, təcrübədə o, dövrümüzün bütün ziddiyyətlərinə təsir göstərir və yaxın gələcəkdə özünü həyati əhəmiyyətli bir problem kimi qəbul etdirəcəyi qaçılmazdır. Qədim zamanlardan bəri insanlar arasına ixtilaf salan ictimai azadlıq məsələsi hazırda mədəni xalqların qədəm qoy-

duğu inkişaf mərhələsindən doğan yeni şəraitdə, yeni şəkildə qarşımıza çıxmaqdadır, bu səbəbdən fərqli münasibət tələb edən fundamental araşdırmaya ehtiyac var.

Qədim Yunanıstan, Roma, həmçinin İngiltərə başda olmaqla, ən erkən dövrlərdən bəri Azadlıq və Hakimiyyət arasında çəkişmə tarixin bariz xüsusiyyəti olub. Lakin o vaxtlar bu mübarizə azadlığa can atan xalq, daha dəqiq desək, xalqın azadlığa can atan müəyyən sinifləri ilə iqtidar arasında gedirdi. Azadlıq deyərkən hakim sinfin mütləq hakimiyyətindən qorunmaq başa düşülürdü. Hakim siniflər (Antik Yunanıstanın bəzi xalq hakimiyyətləri istisna olmaqla) öz təbəələrinə düşmən münasibət bəsləyirdilər. İqtidar – öz hakimiyyətini miras və ya fatehlik yoluyla əldə etmiş, xalqın razılığına əsaslanmayan, səlahiyyətlərinin məhdudlaşdırılmasına apara biləcək qaydalara heç bir halda boyun əyməyən, mütləq gücü sorğulanmaz, bəlkə də sorğulanmasına cürət edilməyən bir rəhbərdən, hakim tayfa və ya zümrədən ibarət olurdu. İqtidarın gücü çox təhlükəli bir silah kimiydi, bu silah xarici düşmənlərə qarşı yönəldiyi kimi, öz təbəəsinə də tuşlana bilərdi. İcmanın zəif üzvlərini qarğa-quzğundan qorumaq üçün həmin

yırtıcılardan daha güclü olan və onların özbaşınalığının qarşısını ala biləcək bir ovçuya ehtiyac vardı. Lakin sürüyə hücuma keçmək məsələsində bu ovçunun iştahası qarğa-quzğundan, kiçik çalağanlardan az olmayacaqdı, nəticədə ovçunun da dimdiyindən və caynaqlarından müdafiə olunmaq lazım gəlirdi. Beləliklə, azadlıq fədailəri iqtidarın icma üzərindəki hakimiyyətini məhdudlaşdırmağı qarşılarına məqsəd qoydular; onlar azadlıq deyərkən məhz bu məhdudiyyəti nəzərdə tuturdular. Bu hədəfə iki yolla nail olmaq istəyirdilər. Birinci yol xalqın siyasi azadlıqları və ya hüquqları deyilən müəyyən toxunulmazlıqları yuxarılara qəbul etdirmək idi. Xalqın hüquqlarına müdaxilə hakimiyyətin öz vəzifəsindən sui-istifadə etməsi kimi başa düşülməliydi və əgər müdaxilə edilərsə, təbəənin üsyan etməsi bəraət qazanmış olurdu. İkinci yol isə hakimiyyətin qarşısına konstitusion maneələr qoymaq idi ki, bu, nisbətən gec hasil olacaq tədbirin sayəsində iqtidara gəlmək üçün cəmiyyətin və ya cəmiyyəti təmsil edən qurumların razılığını almaq zərurətə çevrilməliydi. Avropa ölkələrinin əksəriyyətində hakimiyyət bu məhdudlaşdırma formalarından birincisini az-çox qəbul etmişdi. İkinci məsələdə isə belə deyildi, odur ki, ona nail olmaq,

qismən qəbul olunduğu yerlərdə isə onu bütünlüklə bərqərar etmək azadlıqsevərlərin başlıca məqsədi idi. Amma nə qədər ki, bəşəriyyət cüzi təminatlar müqabilində başlarının üstündəki ağanın əzici hökmranlığı altında yaşamaqla, bir düşməni başqa düşmənə qarşı vuruşdurmaqla qane olurdu, bu hədəfə nail olmaq üçün səy göstərməkdən o tərəfə keçə bilmirdilər.

Həyat davam etdikcə insanlar rəhbərlərin mənafeyinin xalqın mənafeyinə zidd və əlahiddə qüvvə olmasını alın yazısı kimi görməkdən tədricən əl çəkdilər. Dövlət məmurlarını bir növ istədikləri vaxt evdən çıxara biləcəkləri kirayənişin kimi müvəqqəti nümayəndə şəklinə salmaq insanlara münasib göründü. Hökumətin öz səlahiyyətlərindən xalq əleyhinə sui-istifadə etməyəcəyinə yalnız bu yolla əmin olmaq olardı. Xalqı idarə edənlər artıq yalnız seçki yoluyla seçilə, seçilən şəxslər vəzifədə müvəqqəti qala bilərdi – bu yeni tələb bütün partiyaların qayəsinə çevrildi və rəhbərlərin səlahiyyətlərini məhdudlaşdırmaq uğrunda əvvəlki səylərin yerini tutdu. Rəhbərliyin vaxtaşırı keçirilən seçkilər əsasında müəyyən olunması uğrunda mübarizə dərinləşdikcə bəziləri iddia etməyə başladı ki, guya iqtidarın gücünün məhdudlaşdırılması məsələsinə nahaq

yerə həddən artıq əhəmiyyət verilir. Onlar belə zənn edirdilər ki, iqtidarın gücünün məhdudlaşdırılması məhz mənafeyi xalqın mənafeyi ilə ziddiyyət təşkil edən hakimiyyət tipinə qarşı görüləsi tədbirdir, indi isə başqa dövrdür, seçkilər var və əsas istək rəhbərliklə xalqın eyniləşdirilməsi, hakimiyyətin mənafe və iradəsinin xalqın mənafeyi və iradəsiy ilə eyni olmasıdır, buradansa belə çıxır ki, xalqın öz iradəsini ifadə edən hakimiyyətə, başqa sözlə desək, öz-özünə qarşı qorunmasına ehtiyac olmayacaq. Elə fikirləşirdilər ki, daha hakimiyyətin xalq üzərində zorakı hökmranlıq edəcəyindən qorxmağa gərək yoxdur; iqtidar xalq qarşısında məsul olarsa, xalq tərəfindən seçilib çevik şəkildə də dəyişdirilə bilərsə, hakimiyyətin fəaliyyətini xalq diktə edərsə, bu halda camaat öz idarəçiliyini ona rahatca etibar edə bilərdi; bu hakimiyyət başqa bir əldə deyil, xalqın öz əlində cəmləşən, xalqa tabe olan və xalqın məqbul bildiyi şəkildə fəaliyyət göstərən hakimiyyət olacaqdı. Sözügedən düşüncə tərzi, daha doğrusu, hissiyyat Avropa liberalizminin son nəsil nümayəndələri arasında xeyli məşhur idi və qitədə hələ də nəzərəçarpan üstünlüyə malikdir. Xalqın seçkilər yoluyla seçdiyi adamlardan ibarət olsa da, iqtidarın

səlahiyyətlərinə müəyyən sərhəd qoymağı lazım bilən parlaq siyasi mütəfəkkirlər Avropanın qitə hissəsində müstəsna yerdə dayanır. Bəlkə bu baxış, yəni seçkilərlə seçilən iqtidarın səlahiyyətlərinə də müəyyən sərhəd qoymağı lazım bilənlər indi bizdə, İngiltərədə də hakim mövqedə olardı, əlbəttə, bir vaxtlar onu dəstəkləyən şərtlər dəyişməsəydi.

Ümumiyyətlə, uğur elə boşluqların və çatışmazlıqların üstünü açıb faş edir ki, uğursuzluq vəziyyətində onlar gözdən yayınardı: bu həqiqət təkcə insanlara deyil, fəlsəfi və siyasi təlimlərə də şamil oluna bilər.

Xalqın öz-özü üzərində hakimiyyəti məhdudlaşdırmasına ehtiyac yoxdur fikri o zaman qeyd-şərtsiz qəbul edilə bilərdi ki, xalq hakimiyyəti hələ xamxəyal idi, yaxud onun barədə uzaq keçmişdə mövcud olmuş bir şey kimi haradansa oxuyurdular. Bu fikri Fransız İnqilabı[1]

[1] Fransız İnqilabı və ya Böyük Fransa inqilabı (fr. Révolution française; 1789–1799) – Fransa və Avropanın siyasi tarixində köklü dəyişikliklərə səbəb olmuş ən mühüm tarixi hadisələrdən biri. O dövr Fransasında, eləcə də digər aparıcı Avropa ölkələrində hakim zadəgan və katolik ruhanilərinə verilmiş qeyri-məhdud imtiyazlarla xarakterizə olunan mütləq monarxiyadan demokratiyaya keçid, vətəndaşlıq və insan hüquq və azadlıqları kimi mütərəqqi prinsiplərə əsaslanan siyasi-sosial inqilab. İnqilab qanlı iğtişaşlar, minlərlə insanın təqib və edamıyla müşahidə